# Əbülfəs Qarayev: "Azərbaycan mətbuatının ən böyük amalı..."



**"Bu gün müharibə şəraitində yaşayan Azərbaycan mətbuatı çox həssas olmalıdır. Media heç bir vəziyyətdə düşmənin dəyirmanına su tökməməlidir, ucuz sensasiya yaratmamalıdır. Mən demirəm ki, mətbuat tənqid etməməlidir. Lakin ən yüksək amil Azərbaycanın ərazi bütövlüyü və gələcəyi olmalıdır".**

Adalet.az xəbər verir ki, bunu mədəniyyət və turizm naziri Əbülfəs Qarayev "Azərbaycan mətbuatı və milli-mənəvi dəyərlərimiz" mövzusunda keçirilən konfransda deyib. Nazirin fikrincə, bu mənada media, mətbuatın rolu xüsusilə dəyərləndirilməlidir: "Biz medianı ölkəni gələcəyə aparan qüvvə kimi qorumalıyıq".

Bu günlərdə ölkənin hər yerində Azərbaycan milli mətbuatının 140 illik yubileyi ilə bağlı silsilə tədbirlərin keçirildiyini deyən nazir ölkənin ilk mətbu orqanı olan "Əkinçi" qəzeti haqqında da fikirlərini bölüşüb: "O zaman "Əkinçi" qəzeti təsis olunmasaydı, bir sıra tarixi hadisələrin gerçəkləşməsi mümkün olmayacaqdı. Cəmi 2 il yaşamış bu qəzet Azərbaycan milli təfəkkürünün irəli aparılmasında böyük rol oynayıb. Bu qəzet mətbuatın inkişafına və gələcəyinə, o zaman çətin dövr yaşayan Azərbaycanın taleyinə böyük təsir göstərib. Jurnalistika indi də mənəvi dəyərlərinə sadiq qalaraq cəmiyyətə xidmət edir".

Ə.Qarayev dünyada Azərbaycana qarşı aparılan əks təbliğat məsələsinə də toxunub: "Dünyada necə vardısa, ikili standartlar yenə də mövcuddur. Azərbaycanda guya demokratiyanın olmaması, problemlərin olduğunu bəyan edən xarici KİV-lər öz problemlərini görmək iqtidarında deyillər. Amma Azərbaycanda ən kiçik problemi böyüdüb qabardırlar".

Nazir bildirib ki, Azərbaycanda mövcud media məkanı tamamilə sərbəst və açıqdır: "İnternetə rahat daxil olub istənilən məlumatı əldə etmək mümkündür. İstənilən şəxs barədə məlumat əldə etmək olur. Mətbuat istənilən şəxs barədə barədə istənilən mövzuda yaza bilir".

Ə.Qarayev bir daha əminliyini bildirib ki, Azərbaycan mediası ölkənin gələcəyi naminə yenə də müsbət töhfələrini verəcək.

**Sübhan**